*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 103-110*

https://doi.org/10.62837/2025.5.105

**SAHİLƏ BAĞIR QIZI MUSTAFAYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dillər Universiteti,**
**Rəşid Behbudov 134,**
**Elektron poçt ünvanı: mustafayeva.sahila@gmail.com**

# İNGİLİS DİLİNDƏ MÜRƏKKƏB SİFƏTLƏRİN VƏ ZƏRFLƏRİN TƏHLİLİ

***Xülasə:***

*Lüğət tərkibinin zənginləşməsi dilin inkişafının əsas amillərindən biridir. Dilin leksikası, yəni sözlər və onların mənaları, daim dəyişir və yenilənir. Bu dəyişiklik, dilin canlı və dinamik olduğunun göstərir. Cəmiyyətin inkişafı, yeni texnologiyaların meydana gəlməsi ilə yeni sözlər, ifadələr yaranır.*

*Dildə yeni sözlərin yaranması və istifadəsi problemi dilçiləri uzun müddət maraqlandıran mövzulardan biridir. Xüsusən də müasir dövrümüzdə, dilin daha sərbəst və dinamik olması ilə əlaqədar olaraq, dilə daxil olan yeni sözlərin sayının artması diqqət çəkir.*

*Bu məqalədə ingilis dilində mürəkkəb sifətlərin və zərflərin dildə yaratdıqları yeni sözlər araşdırılır.*

*Məlum olduğu kimi, ingilis dilində sifət isim və ya isim birləşməsini təsvir edən və ya təyin edən nitq hissəsidir. Onun semantik rolu ismin verdiyi məlumatı dəyişdirməkdir. Ənənəvi olaraq, sifətlər ingilis dilinin əsas nitq hissələrindən biri hesab olunur.*

*Zərflər isə əsasən hərəkətə xas olan tərzi və həmin tərzin dərəcəsini, hərəkətin baş vermə səbəbini, nəticəsini, baş vermə tərzini bildirən nitq hissəsi olan zərflər də mürəkkəblik baxımından diqqəti cəlb edir.*

*Məqalədə sifətin və zərfin mürəkkəblik xüsusiyyətləri təhlil edilir və onların vasitəsilə dildə yaranan mürəkkəb sözlər araşdırılır.*

*Məqalədə sifətin mənşəyi haqqında məlumat verilir və yazılır ki, dildən asılı olaraq, sifət münasib isimdən əvvəl və ya postpozitiv əsasda müvafiq ismin ardınca gələ bilər.*

*Məqalədə yazılır ki, zərf cümlədə feilə aid olur və ifadə etdiyi mənaya müvafiq olaraq müəyyən suallara cavab verir.*

**Açar sözlər:** *söz, təhlil, sifət, isim, məna, yeni, yaranmaq*

Sifət sözünün mənşəyi Latın dilindən gəlir. Latın və Yunan dillərinin qrammatik ənənəsində sifətlər isimlər kimi cins, say və hal üçün fleksiyaya uğradığından isim növü hesab olunurdu. Bu gün adətən isim adlandırılan sözlər daha sonra substantiv isimlər adlanırdı.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 103-110*

Dildən asılı olaraq, sifət münasib isimdən əvvəl və ya postpozitiv əsasda müvafiq ismin ardınca gələ bilər. Struktur, kontekstual və üslub mülahizələri sifətin baş verməsinin müəyyən bir nümunəsində onun əvvəlki və ya sonrakı mövqeyinə təsir göstərə bilər.

Araşdırmalar göstərir ki, ingilis dilində sifətin hal, cins və kəmiyyət kateqoriyaları mövcud deyildir. Bu da onu göstərir ki, ingilis dilində sifət aid olduğu, təyin etdiyi isimlə hala, cinsə və kəmiyyətə görə uzlaşmır. İsmin hansı halda, yaxud cinsdə və miqdarda olmasından asılı olmayaraq onu təyin edən sifət olduğu kimi adi formada işlənir.

M.Yakobs yazır ki, müasir ingilis dilində sifətlər quruluşuna görə aşağıdakı qruplara bölünür:

1) Sadə sifətlər;
2) Düzəltmə sifətlər;
3) Mürəkkəb sifətlər [5, s. 45].

Azərbaycanda çap olunan bütün qrammatika kitablarında da bu bölgü, yəni müasir ingilis dilində sifətlərin quruluşuna görə bölgüsü bu cür verilir: *sadə, düzəltmə, mürəkkəb.* Məsələn, O.Musayev, G.Məmmədova, S.Mustafayeva və digərləri də apardıqları tədqiqatlara əsasən müasir ingilis dilində sifətlərin quruluşuna görə üç növü olduğu qənaətindədirlər.

Rus qrammatiklərinin müəllifi olduqları qrammatika kitablarında da müasir ingilis dilində sifətlərin quruluşuna görə bölgüsü belə verilir. Məsələn, L.V.Kauşanskaya və digərləri.

Tədqiq etdiyimiz qrammatika kitablarına əsasən sifətlərin morfoloji quruluşlarının izahını aşağıdakı kimi verə bilərik:

1) Yalnız bir kökdən ibarət olan sifətlər sadə sifətlər kimi qəbul edilir. Məsələn: *fat, long, short, straight, fresh, cool, high, warm, tight, narrow, soft, good, red, white* və s.

2) Düzəltmə sifətlər isə kök və şəkilçidən təşkil olunur. Düzəltmə sifətlərdə suffiks, prefiks və yaxud hər ikisinin iştirakı olur. Məsələn: *beautiful, useful, foggy, unkind, illogical, illegal, unmerciful, impossible, comfortable* və s.

3) Müasir ingilis dilində mürəkkəb sifətlər iki və daha artıq kökdən düzələn sifətlər hesab olunur. Nümunələrə baxaq: *lifelong, blue-eyed, snow-white, blood-thirsty* və s.

Müasir ingilis dilində mürəkkəb sifətlərin müəyyən növləri mövcuddur [4, s. 90].

Qeyd etdiyimiz kimi, mürəkkəb sifət müxtəlif nitq hissələrindən və feilin şəxssiz formalarından bəzilərinin iştirakı ilə düzələ bilər. Bir çox mürəkkəb sifətlərdə ümumiyyətlə sifət komponenti olmur.

Mürəkkəb sifətlər nitq hissələri, məsələn, sifət, zərf, isim və feilin şəxssiz formalarından indiki zaman feili sifəti və keçmiş zaman feili sifətlərinin müxtəlif birləşmələrindən yarana bilər [7, s.99]. Onları nəzərdən keçirək:

| *Hissələr* | *Mürəkkəb sifətlər* |
|---|---|
| Adjective+noun | *short-term, broad-spectrum, high-volume* |
| Adjective+present participle | *slow-moving* |
| Noun+past participle | *steel-toed* |
| Number+noun | *tenth-rate* |
| Noun+adjective | *lemon-fresh* |
| Noun+present participle | *globe-trotting, mind-boggling, finger-licking, heartwarming* |
| Adverb+past participle | *underhanded, finely crafted, well-known, widely recognized* |
| Adjective+past participle | *high-strung, hotheaded, shortsighted* |
| Noun+noun | *grassroots, fairy-tale, past-tense* |

Mürəkkəb sifəti təşkil edən ilk qrupda *Adjective+noun (sifət+isim),* yəni iki nitq hissəsinin olduğunu görürük. Bu yolla düzələn mürəkkəb isimlərin yazı qaydasında iki üslub müşahidə edirik. Dilin daxili qanunlarından asılı olaraq, sifət və isim birləşməsindən təşkil olunan mürəkkəb sifətlərin bəziləri defislə, bəziləri isə defissiz yazılır. Onları nəzərdən keçirək:

| *Defis ilə yazılanlar* | *Defissiz yazılanlar* |
|---|---|
| High-quality | Short distance |
| Long-term | Wide speed |
| High-length | Narrow path |

Mürəkkəb sifəti təşkil edən ikinci qrup adjective+present participle (sifət+ indiki zaman feili sifəti) təşkil olunub. Məlum olduğu kimi, indiki zaman feili sifəti feilin əsas feilin sonuna –ing şəkilçisi artırmaqla düzəlir. İndi bu qrupdan olan nümunələri nəzərdən keçirək: *north-facing, sweet-talking, easy-going* və s.

Mürəkkəb sifətlərin növbəti qrupu *Noun+past participle (isim və keçmiş zaman feili sifəti)* təşkil olunur. Bildiyimiz kimi, keçmiş zaman feili sifəti zaman baxımından fərqlənmir və onun yalnız bir forması olur. Təsirli feildən düzəldilmiş keçmiş zaman feili sifəti məchul növ mənasına malikdir, yəni təsirli feildən düzəldilən keçmiş zaman feili sifəti heç bir əlavə qrammatik vasitənin iştirakı olmadan, hərəkətin kiminsə tərəfindən icra olunduğunu bildirir. Felinin bu formasının da mürəkkəb sifətlərin

formalaşmasında rolunu görmək olur. Məsələn: *ironclad, corn-fed, hardcrafted, smoke-dried* və s.

Mürəkkəb sifətlətlərin yaranmasında sayların da rolu vardır. Burada sayların hər iki növünü görmək olur: həm miqdar, həm də sıra sayı mürəkkəb sifətlərin yaranmasında rola malikdir. Say isimlə birləşir və bunun da nəticəsində mürəkkəb sifət yaranır. Məsələn*: first-rate, five-star, ten-foot* və s.

Birinci komponenti say, ikinci komponenti isə sifət olan mürəkkəb sifətlər də mövcuddur. Nümunələrə baxaq: *crystal clear, snow-white, time-sensitive* və s.

*İsim və indiki zaman feili sifəti (Noun+present participle)* ilə formalaşan mürəkkəb sifətlərin orfoqrafiyası diqqəti cəlb edir.

Məlumdur ki, hər bir dövlətin orfoqrafiyası rəsmi dövlət qanunu ilə təsbit olunsa da, həmin qanunu dilçilər hazırlayır, yəni bu sahədə verilən hökmlər, dillərə xas olan bu və ya digər dil vahidinin necə yazılması məsələsi dilçilərin apardıqları tədqiqatlar nəticəsində hazırlanır. Məsələyə bu baxımdan yanaşdıqda məlum olur ki, hər bir dildə mövcud olan sözlərin, o cümlədən də mürəkkəb sifətlərin orfoqrafiyası vacib dilçilik məsələsidir. Bu məsələdə diqqətli olmaq lazımdır. *İsim və indiki zaman feili sifətinin* orfoqrafiyasında üç variantı görmək olur: 1) defislə yazılanlar: *mind-boggling, finger-licking, freedom-loving, life-giving; 2)* bitişik yazılanlar: *heartwarming, heartcooling;* 3) ayrı yazılanlar: *heart breaking, smoke smelling* və s.

Mürəkkəb sifətlərin növbəti növü zərf və keçmiş zaman feili sifətindən (adverb+past participle) təşkil olunur. Bu zaman birinci komponent kimi zərfin mənaca müxtəlif növlərindən istifadə olunur. Məsələn: *under +handed= underhanded (yer zərfi və feili sifət İİ); finely +crafted= finely +crafted (tərzi-hərəkət zərfi və feili sifət II); well+known =well-known (tərzi-hərəkət zərfi və feili sifət II); widely+recognized= widely recognized (tərzi-hərəkət zərfi və feili sifət II)* və s.

Mürəkkəb sifətlərin növbəti növü *sifət+keçmiş zaman feili sifəti (adjective+past participle)* təşkil olunur. *Sifət və indiki zaman feili sifətinin* orfoqrafiyasında əsasən iki variantı görmək olur: 1) defislə yazılanlar: *high-strung, soft-spoken; 2)* bitişik yazılanlar: *shortsighted;* hotheaded və s.

Mürəkkəb sifətlərin növbəti və geniş yayılmış növlərindən biri də *isim+isim (noun+noun)* təşkil olunur. Məsələn: *grassroots, teadrop, past-tense* və s.

O.Musayev mürəkkəb sifətlərin tərkibcə növlərini belə verir [6, s.51]:

1) İsim+feili sifət: *peace-loving;*
2) Sifət+sifət: *deaf-mute, red-hot;*
3) Sifət+isim+-ed: *cold-blooded, blue-eyed, long-sighted, light-hearted* və s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 103-110*

4) İsim+isim+-ed: *lion-hearted, lynx-eyed, shame-faced* və s.
5) say+isim+-ed: *four-wheeled, two-seated,two-sided,two-tongued* və s.

Gördüyünüz kimi, O.Musayevin təklif etdiyi bu bölgü yuxarıdakı bölgü ilə qismən üst-üstə düşsə də, burada daha fərqli mürəkkəb sifət düzəldən hissələr var.

Əsasən hərəkətə xas olan tərzi və həmin tərzin dərəcəsini, hərəkətin baş vermə səbəbini, nəticəsini, baş vermə tərzini bildirən nitq hissəsi olan zərflər də mürəkkəblik baxımından diqqəti cəlb edir.

Zərf cümlədə feilə aid olur və ifadə etdiyi mənaya müvafiq olaraq müəyyən suallara məsələn, *necə, nə cür, nə zaman* və s. cavab verir. Zərfə aid bir neçə cümlə nümunəsi təqdim edək:

*Slowly he picked up the fork (O, yavaş-yavaş çəngəli götürdü). (Slowly –tərzi-hərəkət zərfi)*

*She ate the chocolate cake tastily (O, şokoladlı tortu ləzzətlə yedi). (tastily –tərzi-hərəkət zərfi)*

*They gently woke the sleeping men (Onlar yatmış adamları sakitcə oyatdılar). (gently –tərzi-hərəkət zərfi)*

He is often wandering the streets (O, tez-tez küçələrdə gəzir)

*My brother plays the guitar perfectly (Qardaşım gitarada mükəmməl ifa edir).*

*We got their easily (Biz onları asanlıqla əldə etdik).*

*My friends have been working here (Dostlarım burada işləyirdilər). (often –zaman zərfi)*

*They opened a market nearby (Onlar yaxınlıqda bazar açıblar). (nearby –zaman zərfi)* və s.

Morfoloji quruluşuna görə müasir ingilis dilində zərflər aşağıdakı qruplara bölünür:

1) Sadə zərflər;
2) Düzəltmə zərflər;
3) Mürəkkəb zərflər.

Sözlərin mürəkkəbliyini araşdırarkən baxdığımız kitabların çoxunda sadə zərflərin yalnız bir kökdən ibarət olduğu yazılır. Məsələn: *here, there, fast, often, now* və s.

Düzəltmə zərflər kök və əsas düzəldən şəkilçidən yaranır. Məsələn: quickly, slowly, forward, eastward, homeward, below, above və s.

Mürəkkəb zərflər isə iki sözün birləşməsindən yaranır. Mürəkkəb zərflərə nümunələri belə verə bilərik: *sometimes, nowhere, somewhere, anyhow, whenever, whatever* və s.

Sometimes – mürəkkəb zərfinin lüğəvi mənası belədir: “bəzən” və ya “vaxtaşırı”. Bu hərəkətin zamanını bildirən bir sözdür və bitişik yazılır.

*Sometimes* cümlədə ifadə etdiyi məna baxımından fərqli yerlərdə işlədilə bilər. Nümunələrə baxaq:

*1. Sometimes I just do not understand what that woman is muttering (Bəzən o qadının nə mızıldandığını başa düşmürəm).*

Zərfin cümlənin əvvəlində işlədilməsi ilə əlaqəli belə fikir var ki, əgər zərf, məsələn, *sometimes* mürəkkəb zərfi zümlənin əvvəlinə keçirsə, o zaman onun cümlədə işlədilmə məqsədi emfatikliyi artırmaqdır, yəni sometimes-ın cümlənin əvvəlinə keçməsi cümlədəki bədiiliyi, emfatikliyi artırmaq məqsədi daşıyır [1, s. 120].

*2) English grammar* ***sometimes*** *follows its own rules, and* ***sometimes*** *it does not (İngilis dilinin qrammatikası bəzən öz qaydalarına əməl edir, bəzən isə yox).*

Göründüyü kimi, bu cümlədə təsdiq-inkar bir arada işlədilir, yəni cümlədə ziddiyyət mövcuddur. Tabezis mürəkkəb cümlədə işlədilən *sometimes* mürəkkəb zərfinin əsas vəzifəsi icra olunan hərəkətin vacibliyini diqqətə çatdırmaqdır.

*3) Everybody hurts sometimes (Bəzən hər kəs incidə bilər).*

Bu nümunədə işlədilən *sometimes* mürəkkəb zərfi cümlədə işlədilən mənanı qüvvətləndirmək məqsədi daşıyır. Cümlədə insanın hər birinin nadir halda olsa belə, kimisə incidə bilmək qabiliyyəti olduğu vurğulanır.

Gördüyümüz kimi, hər üç cümlədə işlədilən sometimes mürəkkəb zərfinin daşıdığı məna fərqlidir və həmçinin qüvvətlidir.

## ƏDƏBİYYAT

1. Andreits S. Practical Grammar Discovery. Oxford: Oxford University Press, 2023, 220 p.
2. Azar S.Betty., Hagen A.Stacy. Fundamentals of English Grammar. – USA, NY City, – 2011. – 474 p.
3. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. – Bakı: Mütərcim, – 2015. – 376 s.
4. Kaufman L., et al. The Blue Book of Grammar and Punctuation. Oxford: Jossey Bass edition, 2021, 272 p.
5. Jacobs M. English Grammar rules and mistakes: Learn all Essentials. USA: Independent Press, 2020, 214 p.
6. Musayev O. İngilis dilinin qrammatikası. – Bakı: Qismət, – 2007. – 587 s.
7. Thomson A.J., Martinet A.V. A Practical English Grammar. – Oxford, Oxford University Press, – 1986. – 199 p.
8. Yunusov D.N. Müqayisəli tipologiya. Bakı: Mütərcim, 2012, 222 s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 103-110*

**Mustafayeva S.**

## ANALYSIS OF COMPOUND ADJECTIVES AND ADVERBS IN ENGLISH

**Summary**

The article deals with the analysis of compound adjectives and adverbs in English.

The enrichment of the vocabulary is one of the main factors in the development of a language. The lexicon of a language, that is, words and their meanings, is constantly changing and updating. This change indicates that the language is alive and dynamic. With the development of society and the emergence of new technologies, new words and expressions are created.

The problem of the creation and use of new words in a language has long been a topic of interest to linguists. Especially in our modern era, when language has become more free and dynamic, the number of new words entering the language has increased significantly.

This article examines the new words that compound adjectives and adverbs create in the English language.

As is known, an adjective in English is a part of speech that describes or qualifies a noun or noun phrase. Its semantic role is to modify the information provided by the noun. Traditionally, adjectives are considered one of the main parts of speech in the English language.

Adverbs, which are parts of speech that mainly express the manner and degree of the action, the cause of the action, the result, and the manner of its occurrence, also attract attention in terms of complexity.

The article analyzes the complexity characteristics of adjectives and adverbs and examines the complex words formed in the language through them.

The article provides information about the origin of adjectives and writes that, depending on the language, an adjective can come before a proper noun or after a proper noun in a postpositive basis.

**Key words:** *word, analysis, adjective, noun, meaning, new, create*

**Мустафаева С.**

## АНАЛИЗ СЛОЖНЫХ ПРИЛАГАТЕЛЬНЫХ И НАРЕЧИЙ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Статья посвящена анализу сложных прилагательных и наречий в английском языке.

Обогащение словарного запаса является одним из основных факторов развития языка. Лексикон языка, то есть слова и их значения, постоянно меняется и обновляется. Это изменение свидетельствует о том, что язык живой

и динамичный. С развитием общества и появлением новых технологий создаются новые слова и выражения.

Проблема создания и использования новых слов в языке давно является темой, интересующей лингвистов. Особенно в нашу современную эпоху, когда язык стал более свободным и динамичным, количество новых слов, поступающих в язык, значительно возросло.

В этой статье рассматриваются новые слова, которые в английском языке образуют сложные прилагательные и наречия.

Как известно, прилагательное в английском языке — это часть речи, которая описывает или определяет существительное или именную группу. Его семантическая роль заключается в модификации информации, предоставляемой существительным. Традиционно прилагательные считаются одной из основных частей речи в английском языке.

Наречия, которые являются частями речи, в основном выражающими способ и степень действия, причину действия, результат и способ его возникновения, также привлекают внимание с точки зрения сложности.

В статье анализируются характеристики сложности прилагательных и наречий и рассматриваются сложные слова, образованные в языке с их помощью.

В статье приводится информация о происхождении прилагательных и пишется, что в зависимости от языка прилагательное может стоять перед именем собственным или после имени собственного в постпозитивной основе.

**Ключевые слова:** *слово, анализ, прилагательное, существительное, значение, новый, создавать*

**Rəyçi: fil.f.d. Firəngiz Qurbanova**